# BİR GECƏNİN İÇƏRİSİNDƏ YERLƏ-YEKSAN EDİLMİŞ ŞƏHƏR

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılmışdır. Həmin gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşmiş, komanda və şəxsi heyətinin əksəriyyəti ermənilərdən ibarət olan 366-cı motoatıcı alayının zirehli texnikası və hərbçilərinin köməyi ilə Xocalı şəhərini yerlə-yeksan etmişlər.

Xatın, Liditsa, Oradur soyqırımları kimi, Xocalı faciəsi də insanlıq tarixinə yazılan qanlı hadisədir. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri bu növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoydu, 487 nəfər yaralandı, 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyindən isə hələ də xəbər yoxdur.

Xocalıda törədilmiş vəhşilikləri heç nə ilə müqayisə etmək mümkün deyildir. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, əsir götürülənlərə amansız işgəncələr verilmişdir.

Vaxtilə Xocalı faciəsi dünya mətbuatında geniş işıqlandırılmışdır.

"Krua l'Eveneman" jurnalı (Paris), 25 fevral 1992-ci il: "Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu".

"The Sunday Times" qəzeti (London), 1 mart 1992-ci il: "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər".

"The Times" qəzeti (London), 4 mart 1992-ci il: "Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır".

"İzvestiya" (Moskva), 4 mart 1992-ci il: "Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür".

"Financial Times" qəzeti (London), 14 mart 1992-ci il: "General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbçisi Dağlıq Qarabağda qalmışdır".

"Le Mond" qəzeti (Paris), 14 mart 1992-ci il: "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu, reallıqdır".

"İzvestiya" (Moskva), 13 mart 1992-ci il: "Mayor Leonid Kravets: Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü".

R.Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur): "Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz".

Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir.

Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına görə, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarca meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.

"Neseek" jurnalı (ABŞ), 16 Mart 1992-ci il: "Ötən həftə Azərbaycan yenidən məzarlığa çevrilmişdir: qaçqınlar və kəsilmiş cəsədlər məscidin arxasında meyitxana kimi uzanırdı. Bunlar erməni hərbi birləşmələri tərəfindən 25-26 fevralda ələ keçirilmiş Dağlıq Qarabağın kiçik Xocalı yaşayış məntəqəsinin sadə azərbaycanlı kişiləri, qadınları və uşaqları idi. Bir coxları qaçmağa çalışarkən yaxından atılan güllə ilə öldürülmüş, bəzilərinin üzləri qəddarcasına əzilmiş, digərlərinin isə skalpı çıxarılmışdır. Şəhidlərin ailələri göz yaşı axıdırlar".

"Reuters" agentliyinin fotoqrafı Frederix Lenqeyn: "Birinci maşında mən 35 meyit saydım, ikincidə isə meyitlərin sayı bundan çox idi. Bəzilərinin başları kəsilmiş, çoxları isə yanmışdı "

"The Sunday Times" qəzeti (London), 1 Mart 1992-ci il: "Tomas Qolts: Sağ qalan azərbaycanlılar danışırlar ki, erməni əsgərləri 450-dən çox azərbaycanlını güllələyib, süngüdən keçiriblər. Onların əksəriyyəti qadın və uşaqlar olub, Yüzlərlə, bəlkə də minlərlə insan itkin düşüb və ya həlak olub. Dünən axşam Ağdamın meyitxanasında 579 ölü qeydə alındı. 29 meyit qəbiristanlıqda basdırılmışdı. Dəfn mərasimi gözlənilən yeddi meyitin ikisinin uşaq, üçünün isə qadın olduğunu gördüm. Onlardan biri yaxın məsafədən sinəsindən güllə yarası almışdı. Ağdam xəstəxanasında dəhşətli mənzərə yaranmışdı. Həkimlər qırğından qaçan 140 xəstənin əksəriyyətinin güllə yarası aldığını bildirirdilər..."

"The Sunday Times" qəzeti (London), 8 Mart 1992-ci il: "Tomas Qolts: Ötən həftə bu yer xəritədən silindi. Dəhşətli xəbərlər Azərbaycanın sərhəd şəhəri Ağdama gəlir, meyitxanalar meyitlərlə dolurdu Mən Qarabağa baş çəkən sonuncu qərb adamı idim. Yanvar ayı idi və insanlar uğursuz talelərini əvvəlcədən görürdülər. Azərbaycanlı müdafiəçilər bir-bir həlak olurdular. Sağ qalanlar bildirirdilər ki, erməni qüvvələri bundan sonra amansız qırğına başladılar, tərpənən hər şeyə atəş açırdılar. Bəziləri qəzəblərini xaricilərə bildirirdilər: "Hanı mənim qızım, hanı mənim oğlum?", - deyə analar ah-nalə edirdilər. Zorlanmışdır. Doğranmışdır. İtkin düşmüşdür".



"The Times" qəzeti (London), 2 Mart 1992-ci il: "Anatoli Liven: Biz qarla örtülmüş Dağlıq-Qarabağ təpəliklərinə endikcə, cəsədlərin hər tərəfə yayıldığını gördük. Açıq-aydın görünürdü ki, insanlar xilas olmaq üçün qaçarkən güllələnmişlər...".

"The Times" qəzeti (London), 3 Mart 1992-ci il: "Anatoli Liven: Dağlıq-Qarabağın təpəliklərinə səpələnmiş qadın və uşaqlardan ibarət 60-dan çox meyit erməni qoşunlarının dinc azərbaycanlı əhalisinin qətlə yetirdiyi barədə bəyanatları təsdiqləyir. Yüzlərlə insan itkin düşüb. Təpəliklər və kiçik vadi boyu qurumuş otların üzərinə səpələnmiş Azərbaycan qaçqınlarının cəsədləri ötən çərşənbə erməni hərbçilərinin törətdikləri qırğından xəbər verir...".

"The Times" qəzeti (London), 4 mart 1992-ci il: "Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır".

"Channel 4 Nes" televiziyası (Böyük Britaniya), 2 Mart 1992-ci il: "2 fransız jurnalisti mülki geyimdə olan 32 qadın, kişi və uşaq meyiti görüb. Onların əksəriyyəti 1 metrdən də yaxın məsafədən başlarından güllələnib".

"Boston Sunday Globe" qəzeti (ABŞ), 21yanvar 1993-cü il: Globe əməkdaşı Con Auerbax: "Palçıqlı qaçqın düşərgəsindəki qorxmuş uşaqlar, nalə çəkən analarla dolu yük maşınları, qorxudan sifəti ağarmış insan dənizi, minlərlə azərbaycanlı sual yaradır: nə üçün onlar burada sığınacaq axtarırlar. Gördüklərimiz - onların yolu üstündəki hər bir kəndin sistematik olaraq dağıdılmasının nəticəsidir. Bu bizim gördüyümüz ən nifrət doğuran hadisədir".

"The Age, Melbourne" qəzeti (Avstraliya), 6 Mart 1992-ci il: "Helen Vomak: Qurbanların dəqiq sayı bəlli deyil, lakin şübhə edilmir ki, ötən həftə Dağlıq Qarabağın qarlı dağlarında Azərbaycanın Xocalı kəndinin mülki əhalisi erməni ordusu tərəfindən qətlə yetirilib. Ağdam şəhərində sığınacaq tapmış Xocalı qaçqınları ermənilərin 25 fevralda onların evlərinə necə hücum etdiklərini və meşələrə qaçaraq gizlənənləri izləyib öldürdüklərini ətraflı danışırlar. Ağdama çərşənbə axşamı çatanda təzə qazılmış 75 qəbir və eybəcər hala salınmış dörd cəsədi məsciddə gördük...".

"The ashington Post" qəzeti (ABŞ), 28 Fevral 1992-ci il: "Qaçqınlar bildirirlər ki, yüzlərlə insan erməni hücumu zamanı həlak olub. Bu gün 7 meyit tapılıb, onların ikisi uşaq və üçü qadın idi, biri yaxın məsafədən sinəsindən güllələnmişdi. Digər 120 qaçqın Ağdam xəstəxanasında ağır yaralarla müalicə olunur".

"The ashington Times" qəzeti (ABŞ), 2 Mart 1992-ci il: "Erməni hücumu zamanı yüzlərlə azərbaycanlı öldürüldü və ya itkin düşdü. Təxminən 1000 Xocalı sakini çərşənbə axşamı erməni ordusu tərəfindən qətlə yetirildi. Azərbaycan televiziyası Xocalı ərazisindən gətirilən meyitlərlə dolu yük maşınlarını göstərdi".

"The İndependent" (London), 29 fevral 1992-ci il: "Helen Uomak–"Röytersin Ağdamdakı müxbiri Elif Kaban bildirir ki, mülki əhalinin dünənki kütləvi qırğınından sonra azərbaycanlılar Xocalı şəhərinə ermənilərin hücumu zamanı həlak olmuş insanları dəfn edirdilər. "Dünya burada baş verənlərə göz yumur. Biz ölürük, siz isə sadəcə izləyirsiniz, - deyə adamlardan biri bir qrup jurnalistə qışqırıb".

"Nie" qəzeti, (Bolqarıstan), Violetta Parvanova: "Xocalı insanlığın faciəsidir".

"BBC Morning Nes" 3 Mart 1992-ci il, saat 07.37 yayımında vəziyyəti belə əks etdirmişdir: "Hadisə yerində olan müxbirimiz 100-dən çox azərbaycanlı kişi, qadın və uşaq cəsədlərini gördüyünü və bunların başlarına yaxın məsafədən atəş açılaraq öldürüldüyünü xəbər verir".

Xocalı faciəsinin şahidi olan və sonra Livanın paytaxtı Beyrutda məskunlaşan erməni jurnalist Daud Kheyriyan, "For the Sake of Cross" (Xaçın xatirinə) adlı kitabında (səhifə: 62-63) yazır: "...ölülərin yandırılması ilə məşğul olan bir dəstə erməni martın 2-də Xocalının 1 kilometr qərbində yerləşən bir əraziyə 100 azərbaycanlının meyitini gətirib yığdı. Axırıncı yük maşınında gətirilən ölülərin içərisində 10 yaşlı bir qız uşağı gördüm. Başından və əlindən yaralanmışdı. Sifəti göyərmişdi. Soyuğa, aclığa və yaralanmasına baxmayaraq, hələ də yaşayırdı. Çox çətin nəfəs ala bilirdi. Gözlərini ölüm qorxusu sarmışdı. Həmin vaxt Tiqranyan adlı bir əsgər qızı tutub cəsədlərin üzərinə atdı. Sonra bütün cəsədləri yandırdılar. Mənə elə gəldi ki, yanan cəsədlərin içərisində bir nəfər bağırır. Heç nə edə bilmədim. Sonra mən Şuşaya gəldim. Onlar Xaçın xatirinə savaşa davam etdilər".

Bu gün sənədlərdə Xocalı soyqırımı şahidlərinin ifadələri də vardır.

Heydərov Camal Əbdülhüseyn oğlu: "Qaraqaya deyilən yerin yaxınlığındakı fermanın 2 kilometrliyində eybəcər hala salınmış xeyli azərbaycanlı meyiti var idi. Qətlə yetirilmiş uşaqların sinəsini yarıb ürəklərini parçalamış, əksər meyitlər isə tikə-tikə doğranmışdır".

Heydərov Şahin Zülfuqar oğlu Naxçıvanik kəndi (Xocalı) yaxınlığında 80-ə yaxın meyit görmüşdür. Meyitlər qorxulu vəziyyətə salınmış, başları kəsilmişdir. Milis mayoru Əlif Hacıyev, yaxın qohumları Səlimov Fəxrəddin, Səlimov Mikayıl da qətlə yetirilənlər arasında olmuşlar.

Hümbətov Cəlil Hümbətəli oğlu. Ermənilər onun gözü qarşısında həyat yoldaşı Füruzə, oğlu Muğan, qızı Simuzər və gəlini Südabəni güllələmişlər.

Paşayeva Kübra Adil qızı Kətik meşəsinə girəndə ermənilərin mühasirəsinə düşmüşdür. Gizləndiyi kolluqdan həyat yoldaşı Paşayev Şura Tapdıq oğlunun, oğlu Paşayev Elşad Şura oğlunun güllələnməsinin şahidi olmuşdur.

Əmirova Xəzəngül Təvəkkül qızı. Xocalı işğal olunan zaman erməni silahlıları onun ailəsini bütünlüklə girov götürmüşlər. Ermənilər Xəzəngülün anası Rayanı, 7 yaşlı bacısı Yeganəni və xalası Göycəni güllələyib, atası Əmirov Təvəkkülü isə benzin tökərək yandırmışlar.

Əliyeva Zoya Əli qızı 150 nəfərə qədər adamla 3 gün meşədə qalıb. Meşədə Zoyanın yanında Əhmədova Dünya və onun bacısı Gülxar donub ölmüşlər.

Mustafayeva Kübra Əliş qızı: "Ermənilər bizi girov götürən kimi yanımdakı altı nəfəri yerindəcə güllələdilər".

Kərimova Səidə Qurban qızı: "12 nəfərlə birlikdə girov götürüldük. Ermənilər qızım Nəzakəti, Tapdığı, Səadəti, İradəni işgəncə ilə öldürmüşlər".

Nəcəfov Əli Ağami oğlu: "Ermənilər qaçan adamları mühasirəyə alaraq 30-40 nəfəri yerindəcə güllələmişlər".

1994-cü ildən ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün ardıcıl tədbirlər görmüşdür. Hazırda bu iş Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Xocalı həqiqətlərini əks etdirən çoxsaylı bukletlərin, videomaterialların dünya ölkələrində yayılmasında Heydər Əliyev Fondunun xüsusi rolu vardır.

Azərbaycan Milli Məclisi hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Həmin gün bütün Azərbaycan Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edir.

Dünyanın sülhsevər insanları, sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, beynəlxalq ictimaiyyət bu acı həqiqəti bilməli, insanlığa qarşı törədilən bu cinayət öz hüquqi qiymətini almalıdır.

Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minən Soyqırımı cinayətinin qarşısının alınması və təqsirkarların cəzalandırılması haqqında Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilmiş soyqırımı cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin yürütdüyü terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT-nin və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir.

BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ də yerinə yetirmir.

Doğma yurdlarından didərgin düşmüş Xocalı sakinləri bu gün dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş soyqırımını pisləmək barədə müraciətlər edirlər.

XX əsrin ən qanlı faciələrindən olan Xocalı soyqırımını törədənlər layiq olduqları cəzanı almalıdırlar. Tarix heç nəyi unutmur.

**AzərTAc**